# FİLOLOGİYA

**UOT 821.512.161**

## HÜSEYN NİHAL ATSIZIN "BOZQURDLAR" ROMANINDA QƏDİM TÜRKLƏR. İKİNCİ MƏQALƏ: "BOZQURDLAR DİRİLİRLƏR" ROMANI

**Rəşid TƏHMƏZOĞLU (QULİYEV)**[*]

***Açar sözlər:*** *Hüseyn Nihal Atsız, bozqurdlar, roman, tarixilik, qədim türklər.*

**Giriş**

Hüseyn Nihal Atsızın "Bozqurdların ölümü" romanında türk birliyi və bu birliyin təbliği problemi əsər boyu müəllifin diqqət mərkəzindədir. "Bozqır qanunu" bölməsində bunun bədii təsvirini görürük. Yazıçı öz qəhrəmanlarını həyatda da, savaşda da bir yerdə görmək, bir-birinə dayaq olmaq niyyətindədir.

Müəllif bir məsələni də qabartmağa səy göstərir; türklərin "bozqır qanunu" adlı sərt ənənələri bəzən özlərinə qarşı çevrilmiş olur. Başqa sözlə, həmişə qılıncla öz sözünü deyə bilmirsən. Necə ki, havayı yerdən onbaşı Parsla qılınc savaşına girişən Burğuçan özünün məhvinə səbəb olur...

Bozqurdların birliyini pozan və onların sonunu yaxınlaşdıran əsas səbəblərdən biri də budur ki, onlar, yalnız öz qüvvələrinə, qollarının gücünə güvənirlər. Bir məsələ gün kimi aydındır; özgə torpaqların işğalı, yaxud özgə xalqların var-dövlətinin talanması yolu ilə böyük bir tayfa birliyinin yaşayışını həmişə təmin etmək mümkün deyil. Bu, daxili imkanlar hesabına da həll oluna bilər. Kağanlıq üstündə gedən çəkişmələr də xalqın var-yoxdan çıxmasının əsas yollarındandır. Tulu xanın kağanlığı ələ keçirmək üçün apardığı gizli savaş buna canlı misaldır. Lakin o, təkdir, bu savaşda ona qardaşı Kür Şad da, inandığı Çin vəliəhdi Şe-min də kömək etmişlər. Göy Türklərin vəziyyətini ağırlaşdıran başqa bir əngəl də meydana çıxmışdı; onların tabeçiliyində olan sırtarduşlar, Doqquz oğuzlar, Bayırkular da üsyana qalxmışdılar. Bir yandan da ölkədəki qıtlıq ölükənliləri tamam qırıb tükətmişdi. Belə bir halda, təbii olaraq Çinə hücum və Doqquz oğuzlarla savaşlar uğursuzluqla nəticələnir. Əsərdə Qara Kağanla sərkərdələri Tulu xan, Kür Şad və İşbara Alpın söhbətləri bütün bu uğursuzluğun haradan qaynaqlandığını aydın şəkildə ortaya qoyur...

IYazıçı qədim türklərin dünyagörüşündə möhkəm yer tutmuş şamançılıq inanclarına qayıdır. Onun fikrincə, Göy Türklər bu qıtlığın və uğursuzluğun Tanrıdan gəldiyini güman edirlər. Şaman Kıraç Atanın qabaqcadan söylədiyi göydə Ayın üç yerə parçalanması da baş verir və bu Tanrının qəzəbinə inancı daha da artırır. Qara Kağan isə çıxış yolunu Çinə hücum etməkdə görür. Bu yola onu şövq edənlərdən biri də xatunu İçinq Katundir. .. O, min cür yolla onların əksinə danışanlar barədə məlumat toplayır, Kağana çatdırırdı. Bunun nəticəsi idi ki, Çinə hücum ərəfəsində ordu toplaya bilməmişdilər... Qara Kağanın buraxdığı yanlışlıqlar Çinə son hücum zamanı türkləri məğlub edir. Bir sözlə, həmin gün baş tutan döyüş bozqurdların ölümü ilə qurtarır. Sağ qalanlar, o cümlədən Qara Kağan, Kür Şad, Böğü Alp və başqaları çinlilərə əsir düşürlər... Romanın adı da buradan irəli gəlir. Beləliklə, "Bozqurdların ölümü" romanının üçüncü hissəsi bütünlüklə Göy Türklərin Çin əsirliyindəki acınacaqlı həyatından söhbət açır...

Hüseyn Nihal Atsız öz romanının epiloqunu daha poetik işləmişdir. Bu epiloq öz azadlığı uğrunda qırılan türklərin ruhuna qoşulmuş himn kimi səslənir. Təbiət təsvirləri fonunda müəllifin düşüncələri daha təsirlidir. Bununla da yazıçı yeni romanının yazılması üçün münbit zəmin yarat-

[*] *Filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*

mışdır. Müəllifin türkçülük amalının yeni əsərdə bədii ifadəsi də buradan işıq almışdır. Tarixiliyi isə həmin romanın bütün bədii quruluşunda aramaq gərəkdir...

Bu əsər "Bozqurdlar dirilirlər" adlanır. Onu müstəqil bir roman kimi qəbul etmək doğru olmazdı. Müəllif onu "Bozqurdlar"ın ikinci kitabı kimi işləmişdir. Roman bütün ideya-məzunu, obrazlar aləmi və bədii quruluşu sarıdan tamamilə birinci kitabın davamı təsiri bağışlayır. 1949-cu ilin aprel ayının 14-də yazılıb başa çatan bu əsər göstərirdi ki, Hüseyn Nihal Atsız qədim türklərin tarixini daha əhatəli şəkildə işləmək fikrindədir. Onu da qeyd etmək lazımdır ki, müəllif öz romanının mövzusunu türklərin, nisbətən, yaxın tarixindən götürmüşdür.

Bu roman da yenə tarixlə başlayır. Yazıçı açıq-aydın "İnqilabdan qırx il sonra", 679-cu il" qeydini verir. O, "İnqilab" deyəndə türklərin son üsyanını və acı məğlubiyyətini nəzərdə tutur. Həmin üsyanda 41 nəfər türk igidi şəhid olmuşdusa, onların soykökündən olanlar türkün şanlı tarixini yaşatmağa başlamışdılar. Çinlilər də qırx il idi ki, türk hücumu təhlükəsi gözləmirdilər.

Çin Kağanı Tay-tsing boş yerdən türklər barəsində deməmişdi:

- Qırx başkəsənin ölüsü qırx milyonluq qoca dövləti yendi...

Bu inamla da çinlilər rahat nəfəs alırdılar...

Həmin qanlı döyüşlərdən qırx il keçmişdir; düzənliyin ortasındakı yumru təpəciyin ətəyində dörd türk çadırı qurulmuşdur. Onlardan birində son günlərini yaşayan ana oğlu Urungunu yanına çağırır. Həyatdan köçəcəyini hiss etdiyindən oğlundan 40 ildə gizli saxladığı bəzi həyat hadisələrini ona danışmaq istəyir və əmindir ki, onları heç kəsə bildirməyəcək. Urungu isə anasının önündə and içir:

- Babama, sana yaraşıq bir oğul, ablama yaraşıq bir kardeş olmaq için karşılıqsız vuruşacağım. Andımı tutmazsam gök girsin, kızıl çıxsan... (1, s. 17)

- Atama, sənə yaraşan bir oğul, bacıma yaraşan bir qardaş olmaq üçün əvəz gözləmədən vuruşacağam. Andıma əməl etməsəm, yer-göy mənə qəsəm olsun! (3, s. 323).

Urungu məşhur sərkərdə, çinlilərlə savaşda şəhid olan Kür Şadın oğlu idi. Atası Kağan olmaq haqqından yan keçib, xalqın əsirlikdən qurtarması üçün vuruşmuş və şəhidlik zirvəsinə qalxmışdır. O da atasına oxşamaq istəyir. Anası Kür Şad kimi bir igidin ömür-gün yoldaşı idi; o, oğlunu sağ-salamat böyütmək üçün ölümünü gözünün altına alıb, təhlükəli yollardan keçmiş, yeri düşəndə vuruşub, həm özünü, həm də oğlunu qoruya bilmişdir. Ona görə, Urungu anasına yaraşan oğul olmaq istəyirdi. O, atası kimi, anası ilə də öyünə bilərdi... Anasının oğlunu aradan çıxarması üçün bacısı özünü qurban vermişdi; çinlilər onu edam etmişdilər. Ona görə, bacısına layiq qardaş olmaq istəyində idi...

Müəllif bütün bunları təsvir etmək üçün təhkiyədən xatirə üslubuna keçmişdir. Çünki tarixiliyin real təsvirindən ötrü xatirə ən münasib üsuldur.

Urungu yaxşı xatırlayırdı; Bögü Alpın böyük oğlu Kutluk, kiçik oğlu Örpən, yüzbaşı Yağmurun oğlanları Arslan və Börü; o bunlarla Çibi Kağanın ordusunda bir müddət döyüşmüşdü. Çübu Kağan çinlilərə əsir düşəndən sonra, Urungu döyüş dostlarından Arslanı da itirmiş, anasının yanına qayıtmışdı. Sağ qalan türk ailələri ilə dörd çadırlı bir obada yaşayırdılar. Çadırların birində anası ilə qalırdı, ömür-gün yoldaşı və uşaqları da vardı. Bu kiçik türk obasının sakinləri sabaha böyük ümidlərlə baxırdılar. Lakin bir gün bu obanın da başına fəlakət gəldi; Urungu, Örpən, Börü və Qızıl ovdan döndükləri zaman obanın tamamilə dağıldığını gördülər. Urungunun anası və bir oğlu dağıntılar arasında sağ qalmışdılar...

Yazıçı bu fəlakətdən sonra, Urungunun həyatını belə təsvir edir:

- Sonsuz bozqırda Urungu tek başına at sürüyordu. Anası öldükdən bir il sonra Tacamı evermiş, çadırını onlara burakmış, obalılarla vidalaşarak bozqırların kuçağına atılmışdı. Kismetini böyle arayacaktı; Gök Türk devletini kurmak için bayrak açan bir tegine raslarsa ona uyacak, raslamazsa, ötükene kadar uzanarak bu kutlu yurdu görecekti... (2, s. 31).

- Ucsuz-bucaqsız çöldə Urungu təkbaşına at sürürdü. Anası öldüktən bir il sonra, Tacamı (oğlu) evləndirmiş, çadırını onlara verib, obadakılarla vidalaşaraq bozqırların qucağına atılmışdı.

Qismətini belə arayıb-axtaracaqdı; Göy Türk dövlətini qurmaq üçün bayraq qaldıran bir təginə rast gələrsə, ona qoşulacaq, üzləşməsə, Ötükəni –o ulu yurdu görmək üçün can atacaqdı... (3, s. 330-331).

Bu isə Urungunun düşüncə və istəklərindən başqa, bir şey deyildi. Axı bu yolda çinlilərin düşmənçiliyindən özgə, ayrı-ayrı türk tayfaları arasında da çəkişmələr mövcud idi. Müəllif yenidən tarixin dərin qatlarına enir, Doqquz oğuzlarla Göy Türklər arasındakı çağlarca baş vermiş həmin çəkişmələrdən bəzi epizodları əsərə daxil edir. Urungunun Doqquz oğuzlarla qarşılaşması epizodlarının təsviri buna canlı misaldır.

Urungu bozqırda Doqquz oğuzlarla qarşılaşır. Baş Kağanın kiçik qızı Ay xanımla onun arasında sevgi yaranır və bu sevgi yaşamının sonuna kimi, gizli şəkildə qalır. Doğrudur, "Bozqurdların ölümü" romanında Almıla xanımla onbaşı Parsın aralarında baş tutan sevgi təsvir olunmuşdu. Lakin buradakı sevginin təsviri ondan tamamilə seçilir. Tədqiqatçı N.Nağıyeva yerində qeyd edir ki, "Urunguyla Ay xanımın bu saf məhəbbəti "Bozqurdlar dirilirlər"in ən faciəli süjetidir" (4, s. 30).

Ay xanımın sevgisində qəti inam üçün başqa bir əlamət də olmalıdır. Bu əlamət sapında Bumun Kağanın adı həkk edilmiş, anasının Urunguya bağışladığı Bozqurd soyunun tilsimli bıçağıdır ki, özü ilə gəzdirirdi. Bu bıçağı görən Ay xanımın ona sevgisi qat-qat artmış, bəy soyundan olmasına qəti şübhəsi qalmamışdı...

Lakin onların yolu ayrıdır; Ay xanım öz yurduna – Şimala doğru, Uruğu isə Ötükənə sarı getməlidir. Bununla da onlar tez sevişdikləri kimi, tez də ayrılırlar...

Müəllifin əsərdə əsas qayəsi türk soylarını yenidən diriltmək, Ötükəndə qurdbaşlı bayrağı qaldırmaq ideyasını təbliğ etməkdir:

- Budur yaz yenicə gəlmişdir. Türklərin önündə əsas maniyə olan Çin səddinin qüllələrinin birinə bir atlı yanaşır. Onun adı Tonukkukdur. O, gözətçini aldadaraq atını irəliyə çapır. Bu, bayrağı qaldırmaq üçün başlanğıcdır. Qurdbaşlı bayrağı qaldıran isə Göy Türklərin soyundan olan Kutluq Şaddır. Onun başına toplaşanlar qılınc çəkib and içirlər. "Göy girsin, qızıl çıxsın" (yəni qılınc girsin, qızıl qan çıxsın). Həmin gün onun bayrağı altına toplaşanlar bunlardır: Örpən, Börü Bəy, Qızıl, Qaçam və onun atası Urungu.

İlk plan belə idi: Çin müdafiə dəstələrindən birinə hücum etmək, onlara qalib gəlməklə irəliyə doğru yürüşü davam etdirmək! Bu yolla da hücum edib, həmin dəstəni, onun başçısı yüzbaşı Beni aradam götürürlər. Bununla da irəliyə doğru yeni bir savaş yolu açılır və ucalan bayrağın altına türk obalarından igidlər toplanmağa başlayırlar. Başqa sözlə, bozqurdlar yenidən dirilirlər və keçmiş şöhrətlərini qaytarmaq üçün savaşa atılırlar.

Bozqurdbaşlı bayrağı ilk qaldıran Kutluq Şadı, ona qoşulan isə Tonukukdur. Müəllif bunları yeni obrazlar kimi canlandırmışdır.

Təsadüfi deyil ki, Kutluq ,adı yeni Göy Türk dövlətinə kağan seçirlər. Odur ki, ona İltəriş Kağan adı verirlər. Tonyukuk da ağıllı məsləhətləri və igidliyi ilə Bilgə Tonyukuk ləqəbini daşıyır.

Qeyd etmək lazımdır ki, müəllif bu adların çoxunu tarixdən götürmüşdür. Türklərin tarixində, o cümlədən Orxon-Yenisey abidələrində bu adlar tez-tez təkrar olunur...

Yazıçı öz əsərində Yeni türk dövlətinin necə çətinliklə yarandığını təsvir etməklə yanaşı, onun məhv olma yollarından da söhbət açır. O bu fikri qabartmağa çalışır ki, əgər Doqquz oğuz Kağanlığı və çinlilər birləşsələr, Yeni Türk dövlətini Yer üzündən silib atacaqlar. Bilgə Tonyukuk İltəriş Kağana deyir: - İlteriş Kağan! Çin, Oğuz, Kitay, bu üçü birleşib gelecek olurlarsa, tehlükede kalacağız, Bir şey yufka iken dermek, ince iken kırmak kolaydır. Doğudan Kitaya, güneyden Çinliye, Kuzeyde Oğuza iki üç bin çerimizle karşı geleceyiz. Bunun için de onlar birleşmeden harekete geçerek her biriyle ayrı-ayrı savaşacağız... (2, s. 84).

- İltəriş Kağan! Çin, Oğuz, Kitay - bu üçü birləşib, üstümüzə gələrlərsə, qorxu içində qalacağıq. Bir şeyi körpə ikən dərmək, incə ikən qırmaq asandır... Doğudan Kitaya, güneydən Çinliyə, quzeydən Oğuza iki-üç min əsgərimizlə qarşı duracağıq. Bunun üçün də onlar birləşməmiş, hərəkətə gəlib, hər biri ilə ayrı-ayrılıqda savaşmalıyıq... (3, s. 365).

Gələcək savaşlar göstərdi ki, Tonyukuk haqlı imiş. Hüseyn Nihal Atsız öz əsərində türklərin bu tarixi vuruşlarının bədii təsvirinə geniş yer vermişdir. Bu savaşlarda ölən də olur, ağır yara alan da. Lakin türk igidliyi hər zaman qalib gəlir... Bunun real təsviri bir sıra döyüşçü obrazında öz təcəssümünü tapır.

Romanda Ay xanım obrazı daha canlı verilmişdir. O, gözəldir, həm də igiddir. Yeri gələndə vuruşur, yeri gələndə ürəkdən sevməyi bacarır. Onun bu keyfiyyətləri türk qızlarına məxsusdur. Göy Türklərə yağı kimi özünü göstərsə də, atası Doqquz Oğuzdan, anası isə Göy Türkdəndir. O bu soydan olan İşbara Alpın qızıdır. Almılanın sonbeşik bacısıdır. Yazıçı Ay xanımı təzadlı xarakterə malik olan bir obraz kimi yaratmışdır.

Çin üzərində uğurlu qələbədən sonra, türklər Doqquz Oğuza hücum edirlər. Bu da Ay xanımın faciəsinə gətirib çıxarır...

Roman ağrılı səhnə ilə başa çatır. Göy Türklər tamamilə məhv olmurlar. Onların igidlik tarixi yüzilliklər boyu yaşayacaqdır...

Tanınmış tədqiqatçı Osman Fikri Sərtkaya "Nihal Atsız" adlı əsərində yazıçının qədim türklərin tarixini əks etdirən romanlarını belə qiymətləndirmişdir:

- Bizim ədəbiyyatımızda sadəcə tarixi romanlar deyil, digər romanlardan heç birində görmədiyimiz bir xüsusiyyəti açıqlayaraq ideoloji şərtlənmədən və bəlkə də, buna görə də uğurlu alınan bir aclıq təsviri vardır ki, bütün marksist yazıçılar otursa qida sıxıntısını bu qədər gözəl ifadə edə bilməzdilər... (5, s. 32).

**Nəticə**

Bu səbəbdəndir ki, Hüseyn Nihal Atsızın iki əsərdən ibarət olan "Bozqurdlar" romanını türk xalqlarının tarix dastanı adlandırmaq mümkündür. Tarixi reallıqları təsvir yolu ilə bədii yüksəkliyə qaldırmaq bu romanların ən ümdə məziyyətlərindəndir. Elə buna görə, roman bütün türk xalqları içərisində böyük hörmətlə qarşılanmışdır. Bu romanlar göstərdi ki, Hüseyn Nihal Atsız türklərin qədim tarixini bədii ifadə vasitələri ilə oxuculara çatdırmağı bacarmışdır. Sözsüz ki, bu romanlar da kəsirsiz deyildir. Bu da onunla şərtlənir ki, bəzən müəllifin təhkiyə və təsvirində müasirlik tarixiliyi üstələyir. Buna baxmayaraq, əsərlərin dilində keçmişlə müasirliyin sintezini də sezmək çətin deyildir...

## ƏDƏBİYYAT


1. Atsız. "Bozkutların ölümü", İstanbul, yayın NU:1, 1992.
2. Atsız. "Bozkurtlar diriliyor", İstanbul, yayın NU:1, 1993.
3. Hüseyn Nihal Adsız. "Bozqurdlar", B., "Yazıçı", 1993.
4. Nigar Nağıyeva. "Nihal Atsız və türk tarixi", Bakı, "Alyans", 2002.
5. Osman Fikri Sərtkaya. "Nihal Atsız", İstanbul, 1992.

***РЕЗЮМЕ***

***Рашид Тахмазоглы (Кулиев)***

***Древние тюрки в романе «Бозкурды» Гусейна Нихаль Атсыза. Вторая статья: роман «Бозкурды оживают»***

***Ключевые слова:*** *Гусейн Нихаль Атсыз, бозкурды, роман, историчность, древние тюрки*

Роман «Бозкурд» занимает особое место в творчестве Гусейн Нихаль Атсыза. Произведение состоит из двух романов. Один из них называется «Смерть бозкуртов», а другой «Бозкурды оживают». Романы дополняют друг друга с точки зрения актуальности идей и содержания. Оба произведения мастерски отражают историю древних тюрков. Основное внимание в статье уделено литературным особенностям романа «Бозкурды оживают». Идея единства Гек тюрков всесторонне освещается автором.



***SUMMARY***

***Rashid Tahmazoglu (Guliev)***

***Ancient Turks in Hussein Nihal Atsız's Novel "The Grey Wolves". Second article: the Novel "Revival of the Grey Wolves"***

***Keywords****:Huseyn Nihal Atsiz, Bozkurt, Novel, Historiaty, Ancient Turks*

The "Bozkurts" (The Grey Wolves) novelhas a special place in the work of Husein Nihal Atsiz. One of them is called "Death of the Grey Wolves", and the other in called "Revival of the Grey Wolves". They complement each other in terms of the relevance of their ideas and content.Both novels aktually reflect the history of ancient Turks.

The author had to go deeper into history to do this. In other words, the fight of the Turks against the Chinese and the Oguzes forms the basis of the novel "The Grey Wolves".

The article mainly focuses on the artistic features of the novel"Death of the Grey Wolves". The idea of the unity of the Blue Turks is thoroughly illuminated by the author.